# Qəsəbə və kənd sakinləri ilə səyyar qəbullar


Nic qəsəbəsi.



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rayonumuzun ayrı-ayrı qəsəbə və kəndlərində sakinlərlə qəbulu keçirilir. Qəbullarda həmçinin rayonumuzun hüquq mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri, həmçinin qəsəbə və kənd sakinləri iştirak ediblər. Keçirilən qəbullar zamanı Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev ilk növbədə ölkəmizdə müxtəlif sahələrdə qazanılan uğurlardan, hərtərəfli inkişaf və əhalinin sosial problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, ölkə Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə rayonumuzda aparılan quruculuq işlərindən, həmçinin qarşıda duran vəzifələrdən ətraflı danışmışdır. Daha sonra sakinlər dinlənilmiş, onları narahat edən sosial problemlər müzakirə edilmiş, həlli istiqamətində RİH-nin başçısı tərəfindən əlaqədar təşkilatların rəhbərlərinə lazımi tapşırıq və göstərişlər verilmişdir.


Tüntül kəndi.




Həmzəli kəndi.



Tədbirlərdə vətəndaşlar əhalinin rifahının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatlara görə ölkə başçısına dərin minnətdarlıqlarını bildirmişlər.

Aprel ayında Nic qəsəbəsində, Tüntül kəndində, Həmzəlli kəndində, Kiçik Pirəlli və Çuxur Qəbələdə, Yenikənddə səyyar qəbul-


Çuxur Qəbələ kəndi.


Yenikənd kəndi.

# Mədəniyyətimizin beşiyi Şuşa



2022-ci ilin ölkəmizdə "Şuşa ili" elan edilməsi ilə əlaqədar Qəbələ rayon Heydər Əliyev Mərkəzində Şuşa rayon 24 nömrəli tam orta məktəbin müəllim və şagird kollektivinin və Qəbələ şəhər Uşaq İncəsənət Məktəbininin şagirdlərinin iştirakı ilə "Mədəniyyətimizin beşiyi Şuşa" adlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan mərkəzin direktoru Fuad Qasımzadə Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2022- ci ilin "Şuşa ili" elan edilməsi haqqında Sərəncamın mühüm siyasi və tarixi əhəmiyyət kəsb etdiyini vurğulamış və bu qərarın verilməsi ilə xalqımızın tarixi, mədəni dəyərlərinə xüsusi diqqətin, böyük ehtiramın göstərildiyini qeyd etmişdir. Çıxış edənlər Şuşa şəhərinin yaranma tarixindən, "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan Şuşa şəhərinin yetişdirdiyi görkəmli musiqi xadimlərindən söhbət açmışlar. Şuşa rayon 24 nömrəli tam orta məktəbin direktoru Səbinə Gözələva ən qısa zamanda öz torpaqlarına qayıtmaq, bu səpkidə tədbirlərə Şuşada ev sahibliyi etmək arzusunda olduqlarını bildirib. Tədbir məktəblilərin ifasında rəqs, şeir və mahnılarla davam etdirilmişdir.

### QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2022-ci İLİN MAY AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Yemişanlı kəndi | 04.05.2022 | Kənd məktəbi, saat $15^{00}$ |
| Yengicə kəndi | 11.05.2022 | Kənd məktəbi, saat $15^{00}$ |
| Mirzəbəyli kəndi | 18.05.2022 | Kənd məktəbi, saat $15^{00}$ |
| Yeni Dizaxlı kəndi | 25.05.2022 | Kənd məktəbi, saat $11^{00}$ |

# Seminar-müşavirə

Yeni Azərbaycan Partiyası Qəbələ rayon təşkilatında partiya fəallarının və ərazi partiya təşkilat sədrlərinin iştirakı ilə seminar-müşavirə keçirilib. Seminar-müşavirədə partiya fəalları, ərazi təşkilat sədrləri və rayonun bir qrup gəncləri iştirak etmişdir. Tədbiri giriş sözü ilə YAP Qəbələ rayon təşkilatının sədri Abil Ağasəfov açaraq Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, həmin dövrdəki siyasi proseslərdən danışmışdır. Daha sonra çıxış edənlər bildiriblər ki, bu gün onların həyatında çox əlamətdar hadisə kimi qalacaq, inkişaf və müasirlik partiyası olan Yeni Azərbaycan Partiyasının üzvü olmaq böyük məsuliyyət və şərəfdir. Müşavirənin sonunda Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş üzvlərə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

"Qəbələ"